Ədəbiyyat qəzeti

18 iyul 2020-ci il 27

# Başın uca olsun, Vətən!



*Məlum olduğu kimi, bu il iyulun 12-də öz erməni xislətilə seçilən işğalçı Ermənistan qoşunları Vətənimizin sərhədlərini xaincəsinə pozmağa cəhd edərkən, Azərbaycan Silahlı Qüvvələri tərəfindən ağır itkilər hesabına geri çəkilməyə məcbur edilmişdir. Bu, artıq geniş Beynəlxalq miqyasda gərgin vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Azərbaycan xalqı ayağa qalxmışdır.*

*Təbiidir ki, bu müharibə vəziyyəti ordumuzun cəbhə bölgələrində ədəbi görüşlər keçirən, müxtəlif yaradıcılıq əlaqələri ilə bağlı olan, bu günlərdə isə "Qələmlə-Silahla" adlı, Azərbaycan Ordusunun təşəkkülünə və Ulu Öndərin, eləcə də Ali Baş Komandan Cənab İlham Əliyevin qüdrətli ordu quruculuğuna həsr olunmuş kitab-albomun nəfis şəkildə nəşri və geniş müzakirəsini keçirən yazıçılarımızı narahat etməyə bilməzdi.*

*Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar televiziya ilə çıxışında Ermənistanın alçaq niyyətlərini ifşa etmiş, Birliyin Ağsaqqallar Şurasının bir qrup üzvü - yazıçılar və alimlər ənənəvi olaraq, Şəhidlər Xiyabanına gedərək, müqəddəs məzarların üzərinə əklil qoymuşlar.*

*Azadlığımız və müstəqilliyimiz uğrunda həlak olan yeni şəhidlərimizə Allah rəhmət eləsin, - deyirik, yaralılarımıza ürəkdən şəfa diləyirik. Onları gələcək ədəbi görüşlərimizdə alqışlamaq arzusundayıq.*

*Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurası*